**Bakı Xəbər**. - 2024. - 23 oktyabr. - № 192. - S. 4.

# Yaxın 2 həftədə COP-a görə qeydiyyatdan keçənlər azı 3 dəfə çoxalacaq...

***Mətləb Salahov:*** *"Rəsmi Bakıya göstərilən bu böyük etimadı kölgələmək istəyənlərin təxribatları özləri kimi fiaskoya uğradı"*

**İradə Sarıyeva**

**Bu ilin noyabrında Azərbaycanın ev sahibliyi edəcəyi COP29-da iştirak üçün müvafiq qeydiyyat prosesindən keçən iştirakçıların sayı 32 min nəfəri ötüb. Bu barədə COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətindən məlumat verilib.**

Beynəlxalq iqlim konfransında iştirakla bağlı qeydiyyat prosesinə bu il iyunun 24-də başlanılıb. Dünyanın müxtəlif ölkələrindən konfransda iştiraka dair göstərilən maraq qeydiyyatdan keçənlərin sayının da günbəgün artımı ilə müşayiət edilir.

COP tədbirlərinə xas olan əksər nümayəndə heyətlərinin tədbirə daha yaxın tarixlərdə qeydiyyat üçün müraciət etmə tendensiyası nəzərə alınaraq, davam edən qeydiyyat prosesi ərzində bu rəqəmlərin yaxın həftələrdə daha da artması gözlənilir.

Hazırda COP29 konfransına müxtəlif ölkələrdən qatılacaq nümayəndə heyətlərinin qeydiyyat prosesi uğurla davam edir.

Qeyd edək ki, noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 konfransı beynəlxalq iqlim siyasətinin formalaşmasında əsas platforma kimi, dünya miqyasında iqlim dəyişmələrinə qarşı mübarizə məsələlərinin müzakirə mərkəzi olacaq. Dünyanın bir sıra ölkələrindən bu müzakirələrdə iştirak etmək üçün on minlərlə nümayəndənin Bakıda qarşılanması üçün yekun hazırlıq işləri davam etdirilir.

COP29-la bağlı 32 min nəfər qeydiyyatdan keçib, amma bu say getdikcə artacaq.

Qeydiyyatdan keçmə prosesində artım dinamikası nələrdən asılı olacaq və yaxın iki həftə ərzində bu prosesin perspektivlərində nələr görsənir?

*"İştirakçı sayının durmadan artması daha müsbət nəticələr üçün olduqca ümidvericidir"*

Jurnalist-ekspert Mətləb Salahov "Bakı-Xəbər"ə "Dünya ictimaiyyətinin bütün diqqəti gələn ay Bakida keçiriləcək COP29 kimi önəmli tədbirə yönəlib. Demək olar ki, dünyada nüfuz sahibi olan ciddi KİV orqanları iqlim dəyişikliyinə həsr olunan bu mühüm tədbirə hazırlığı hər gün öz səhifələrində diqqət mərkəzində saxlayırlar. Xüsusilə iqlim dəyişikliyi kimi prioritet mövzunun dünya gündəmini zəbt etdiyi bir zamanda Bakıda keçiriləcək COP29 tədbiri getdikcə daha çox maraq kəsb edir. Əslində Azərbaycana qarşı qarayaxma kampaniyası təşkil edənlərin ən böyük fiaskosu da məhz indi baş verir. Çünki rəsmi Bakının COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı 198 ölkədən, dünya ictimaiyyətindən, nüfuzlu beynəlxalq dairələrdən aldığı bu böyük etimadı kölgələmək üçün çarpışanların təxribatları özləri kimi fiaskoya uğradı"- deyə bildirdi.

M.Salahovun sözlərinə görə, son rəsmi statistikada da deyildiyi kimi, bu beynəlxalq tədbirin bir parçası olmaq üçün Bakıya üz tutanların sayı durmadan artır. "Hətta əllərində bütün informasiya təxribatları üçün geniş imkanı olan Qərbdəki anti-Azərbaycan dairələri də rəsmi Bakının son dərəcə böyük həssaslıqla hazırlaşdığı bu mühüm tədbirə, nə qədər çalışsalar da, kölgə sala bilmədilər. Çünki beynəlxalq ictimaiyyət, dünya iqlim institutları, ən nüfuzli və güclü imkanlara sahib iqtisadi qurumlar ən vacib məsələlərini, iqlimlə, ekologiya, bəşəriyyətin gələcəyi ilə bağlı məsələləri məhz Azərbaycanda müzakirə etmək niyyətindədir. Bu fakt Azərbaycan əleyhdarlarının həvəsini qursağında qoydu.

Digər bir məqama xüsusilə diqqət yetirək. Azərbaycan öz tarixində heç bir vaxt COP29 miqyasında olan qlobal müzakirəyə liderlik etməyib. Hətta deyərdim ki, bundan sonra da uzun illər boyu beynəlxalq miqyasda belə bir mühüm ev sahibliyi barədə fürsətimiz olmayacaq. Miqyas olaraq COP dünyada gerçəkləşən ən böyük tədbir sayılır. Çünki burada verilən qərarlar geosiyasi və geoiqtisadi xəritələrin dəyişmələrinə səbəb olacaq qədər ciddi təsirlərə malik olacaq.

Bu konfrans Azərbaycanın, neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edəcək. Beynəlxalq konfransın Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcək.

COP29-a getdikcə artan maraq həm də Azərbaycanın turizm potensialı ilə tanış olmaq fürsəti ilə bağlıdır. COP29-a daha çox turizmin inkişafına təkan verəcək bir fürsət kimi də baxmaq lazımdır. Bu mənada iştirakçı sayının durmadan artması daha müsbət nəticələr üçün olduqca ümidvericidir. Beynəlxalq

münasibətlər sistemində çətin və mürəkkəb proseslərin getdiyi bir vaxtda ölkəmizin öz mövqeyini gücləndirməsi, həmçinin, geopolitik mərkəzə çevrilməsi Azərbaycanın qlobal siyasi güc olaraq nüfuzunu hər gün daha çox artırır. Dünyanın aparıcı dövlətlərinin Azərbaycanla sıx strateji əlaqələr və əməkdaşlıqlar qurmaqda maraqlı olmaları da bunun bariz nümunəsidir”-deyə M.Salahov qeyd etdi.